# Korrupsiyaya qarşı mübarizədə hər bir vətəndaş fəal olmağa borcludur

***Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il 4 aprel tarixli sərəncamı ilə Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022—2026-cı illər üçün Milli Fəaliyyət Planı təsdiq edilmişdir. Bu, olduqca mühüm əhəmiyyət kəsb edən sənəddir. Azərbaycan iqtidarının bu istiqamətdə atdığı addımlar ölkə ictimaiyyəti tərəfindən dərin razılıq hissilə qarşılanır.***

Sərəncamda qeyd edilir ki, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022—2026-cı illəri əhatə edən bu çoxşaxəli Milli Fəaliyyət Planı fərqli fəaliyyət istiqamətləri olan müxtəlif qurumların korrupsiyaya qarşı mübarizə səylərini birləşdirməyə xidmət edir, eləcə də korrupsiyaya qarşı mübarizənin bütün dövlət strukturları və vətəndaş cəmiyyəti institutları ilə birgə sistemli və əlaqəli şəkildə gerçəkləşdirilməsinə imkan yaradır.

Məlumdur ki, ümumi inkişafa və təhlükəsizliyə mənfi təsir göstərən korrupsiya qanunun aliliyinə və sosial ədalətə ciddi təhlükə yaradır, iqtisadi və sosial inkişafı ləngidir, əlverişli biznes mühitinin yaranmasına mane olur. Sirr deyildir ki, korrupsiya tarix boyu cəmiyyətlərin üzləşdiyi problemlərdən olmuşdur və bu gün də bütün dünya ölkələrində aktual problemlərdən biri olaraq qalmaqdadır. Ayrı-ayrı ölkələr korrupsiyaya qarşı müxtəlif yollarla mübarizə aparmağa çalışırlar. Azərbaycan dövləti bu istiqamətdə daha effektli və ardıcıl addımları ilə seçilir.

Reallıq budur ki, Azərbaycanın korrupsiyaya qarşı mübarizə təcrübəsi sistemli, kompleks və innovativ xarakteri ilə seçilir. Təqdirəlayiq haldır ki, hazırda ölkəmizdə sosial dövlətin yeni modeli formalaşmışdır və dövlət siyasətinin əsas məqsədi insanların yüksək sosial rifahına nail olmaqdır. Yeri gəlmişkən, korrupsiyaya qarşı mübarizədə dövlətimizə Azərbaycan mediası da hər cür



kömək etməyə çalışmalıdır. İnanıram ki, konstruktiv və qərəzsiz mövqeləri ilə seçilən KİV onların peşəkar əməkdaşları bu problemin həllinə ədalətli yanaşma sərgiləyəcəklər.

Müstəqil Azərbaycanın uğurlarına sevinən və uğurların daha çox olmasını ürəkdən arzulayan hər bir vətəndaş ölkəmizdə korrupsiyaya qarşı mübarizədə fəal olmağa borcludur. Mən tamamilə əminəm ki, Azərbaycan dövləti və ölkəmizdəki vətəndaş cəmiyyəti əl-ələ verərək Milli Fəaliyyət Planında nəzərdə tutulan mühüm tədbirləri uğurla həyata keçirəcək, Azərbaycanın hərtərəfli inkişafına maneçilik törədən halların qarşısını bundan sonra da qətiyyətlə alacaqlar.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***